Milli şüurda və xalqın iradəsində bərqərar olan ideologiya

Eramızdan əvvəl VI əsrdə yaşamış yunan filosofu Pifaqorun irəli sürdüyü numeralogia nəzəriyyəsində rəqəmlərin insan taleyində (hətta bəzən xalqların taleyində) mühüm rol oynadığı iddia edilir. Bir nəzəriyyənin elmi əsası olmasa da, bəzən müəyyən qanunauyğunluqlar müşahidə edilir. Məsələn, 20 rəqəminin ölkəmizin tarixində müəyyən rol oynadığı müşahidə olunur: Azərbaycan XX əsrdə iki dəfə müstəqillik əldə edib, məhz 1920-ci ildə işğal olunub, 20 yanvar, 20 noyabr hadisələri olub, nəhayət 2020-ci ildə torpaqlarımız düşmən tapdağından azad edilib. Belə "qanunauyğunluqlardan" biri də 1990-cı illərə təsadüf edir. 1991-ci ilin oktyabrında ikinci dəfə müstəqillik əldə edən respublikamızın suverenlik taleyi düz 20 aydan sonra - 1993-cü ilin iyununda böyük sual altında idi. 1920-ci ildə baş vermiş hadisələr təkrarlanmağa doğru gedirdi - Heydər Əliyev bu böhranın qarşısını alıb Azərbaycanın taleyini dəyişdirə bildi.

O dövrdə ölkədə xaos və anarxiya hökm sürürdü. İqtisadiyyat tamamilə dağıdılmış, insanlar müxtəlif qanunsuz silahlı birləşmələrə cəlb edilərək üz-üzə qoyulmuşdu. Azərbaycanın ərazisi müxtəlif "xanlıq" və "nüfuz dairələri"nə parçalanmış, Dağlıq Qarabağda isə torpaqlarımızın müdafiəsi taleyin ümidinə buraxılmışdı. Qanunsuz odlu silah gəzdirmək və tətbiq etmək adi məişət hadisəsinə çevrilmişdi. Ağır zirehli texnikaya və qanunsuz silahlı dəstələrə sahib olan siyasi partiyalar bir-birinə "əzələ" nümayiş etdirir və ölkədəki vəziyyəti daha da mürəkkəbləşdirirdi. Bəzi yüksək dövlət vəzifəsi tutanlar məsuliyyətsiz siyasi bəyanatlar verməklə Azərbaycanı həm qonşu dövlətlərlə, həm də regionda geosiyasi maraqları olan dövlətlərlə, az qala, müharibə vəziyyətinə gətirmişdilər. 1993-cü ilin iyun ayında "milli qəhrəman" statusuna qaldırılmış Surət Hüseynovun Gəncədəki qanunsuz hərəkətləri, mərkəzi hakimiyyətə tabe olmaması isə ölkədəki hərc-mərcliyin və anarxiyanın xalqın o zamankı iqtidara qarşı inamsızlığının məntiqi sonluğu oldu. Faktiki olaraq müəyyən xarici qüvvələrin dəstəklədiyi bu itaətsizlik respublikamızın yenicə nail olduğu dövlət müstəqilliyinə ciddi təhlükə olmaqla yanaşı, vətəndaş müharibəsinə, Azərbaycanın ayrı-ayrı bölgələrə parçalanmasına zəmin yaratmışdı. Yaranmış münbit şəraitdən istifadə edən "Sadval" hərəkatı və həmin dövrdə mövcud olmuş digər etnikhərbi qruplaşmalar dövlətçilik əleyhinə təxribatçı fəaliyyətlərini genişləndirirdilər. Cənubda qondarma "Talış-Muğan respublikası"nın elan olunması Azərbaycanın ərazi bütövlüyünün pozulması, ölkədəki hakimiyyətsizliyin, xaos və anarxiyanın, qanunsuzluğun bariz təcəssümü idi.

Belə bir böhranlı və ağır vəziyyət eynilə 1920-ci ilin yazını xatırladırdı. Azərbaycan xalqının qabaqcıl, mütəfəkkir insanlarının xidmətləri sayəsində müsəlman Şərqində qurulmuş ilk Demokratik Cümhuriyyət 23 aylıq fəaliyyətdən sonra süqut ərəfəsində idi. Baxmayaraq ki, onların titanik fəaliyyəti nəticəsində dünyanın bir çox dövlətləri ilə əlaqələr qurulmuş, bir sıra dövlət quruculuğu tədbirləri həyata keçirilmiş, ilk dünyəvi universiteti yaradılmış, Azərbaycan dünyada müstəqil dövlət kimi tanınmışdı, ancaq daxili siyasi gərginlik, xarici qüvvələrə işləyən satqın mənsəb sahibləri, parlamentdə kəskin fikir ayrılıqları, silahlanmış "qoçu dəstələri", ölkənin daxili problemlərinə xaricdən müdaxilə və digər amillər nəticədə çətinliklə əldə edilmiş milli müstəqilliyi iflasa uğratdı.

1993-cü ilin yayında da təxminən eyni ssenari hazırlanmışdı, gözlərimiz qarşısında tarixin təkrarlanması prosesi gedirdi. 73 illik fasilədən sonra baş verən bu olayların o zamankı hadisələrdən yalnız iki fərqi var idi, qalanları - tarixi şərait, adamlar, siyasi vəziyyətin adı dəyişikliyə uğramaqla demək olar ki, eyni idi: birincisi, bu hadisələr müstəqillik elan edildikdən 23 ay yox, 20 ay sonra baş verirdi, ikincisi tarixin səhnəsində çox müdrik, cəsarətli, hər şeyi dəqiq hesablamağı bacaran siyasətçi Heydər Əliyev var idi.

Tarix dünya təcrübəsində bir neçə dəfə, doğma Azərbaycanımızın timsalında da sübut etmişdir ki, müstəqilliyi əldə saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Azərbaycan qazanılmış müstəqilliyi geriyədönməz milli sərvətə - müstəqil dövlətə çevirmək üçün Heydər Əliyevin qayıdışına möhtac idi. Xalqın inadlı tələbi ilə bu missiyanı boynuna götürən Heydər Əliyevin 1993-cü ilin həyəcanlı anlarında möhtəşəm qayıdışından başlanan xilaskarlıq missiyası qüdrətli, "müstəqilliyi əbədi, dönməz və sarsılmaz olan" Azərbaycan dövlətinin qurulması ilə nəticələndi. Xalq yaxşı anlayırdı ki, müdrik, təcrübəli və qüdrətli şəxsiyyət olmadan ölkəni əhatə etmiş total böhran, ciddi təhlükələr məngənəsi, son həddə çatmış siyasi qeyri-sabitlik, sürətli iqtisadi tənəzzül, erməni təcavüzünün coğrafiyasının genişlənməsi və digər bu kimi amillərdən qurtulmaq mümkün olmayacaqdır. Məhz Heydər Əliyevin sayəsində müstəqillik ideyaları həqiqi gerçəkliyə çevrilib. Ümummilli lider müstəqillik, Azərbaycançılıq ideologiyasını milli şüurda və psixologiyada, xalqın iradəsində bərqərar etməyə nail oldu, insanlarda Vətən, dövlət, dövlətçilik, suverenlik hissiyyatları gücləndi, vətənpərvərlik ümummilli ideologiya səviyyəsinə qaldırıldı. Azərbaycanda demokratikləşmə milli inkişafın vacib faktoru kimi dövlət siyasətinin əsas istiqamətinə çevrildi.

Azərbaycanın XX əsr tarixinin ən möhtəşəm hadisələrindən biri olan məşhur tarixi qayıdış nəticəsində ölkəni bir neçə il ərzində taqətdən salan hərc-mərcliyə qətiyyətlə son qoyuldu, sabitlik və əmin-amanlıq təmin edildi, hərtərəfli böhran cilovlandı, erməni təcavüzünün Azərbaycanın dərinliklərinə irəliləməsinin qarşısı alındı. Əslində, Heydər Əliyev Azərbaycanın düçar olduğu vəziyyətdən xilasını geniş planda ölkədə nəinki yeni siyasi, həm də yeni iqtisadi və mənəvi situasiyanın yaradılmasında görürdü. Ulu öndər özünün xilaskarlıq missiyasını şərəflə yerinə yetirərək Azərbaycanın müstəqilliyinin əbədi, sarsılmaz və dönməzliyini təmin etdi, müstəqil dövlətçiliyi möhkəmləndirən əsasları yaratdı.

Yaradılan dayanıqlı siyasi sabitliyin ardınca iqtisadiyyatda tənəzzülün cilovlanması, maliyyə nizam-intizamının yaradılması, aqrar islahatların həyata keçirilməsi, yeni iqtisadi sistemə keçidi təmin edən cəsarətli addımların atılması zəruri idi. Ölkəmizə yönəlmiş müxtəlif təzyiq və təhlükələrin dəf edilərək birdəfəlik neytrallaşmasında Heydər Əliyev dühasının məhsulu olan neft strategiyasının müstəsna rol oynadığını xüsusi qeyd etməyə ehtiyac var. Məhz onun sayəsində Azərbaycan uğurlu tarazlaşmış xarici siyasət yeritmək manevri qazandı, iqtisadiyyatını dirçəltmək, genişmiqyaslı sosial layihələri həyata keçirmək üçün güclü dəstək əldə edə bildi. Heç şübhəsiz ki, ölkəmizin regionda lider dövlətə çevrilməsi, dünyanın ən dinamik iqtisadiyyatına malik olan ölkə adını şərəflə daşıması, Azərbaycanın beynəlxalq aləmdə rolunun və əhəmiyyətinin hissolunan dərəcədə artması və digər çoxsaylı uğurlarımız Heydər Əliyevin neft strategiyası ilə birbaşa bağlıdır. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində və xalqımızın taleyində neft strategiyasının nə qədər böyük əhəmiyyət daşıdığını Prezidenti İlham Əliyev belə ifadə etmişdir: "Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində ölkəmizə milyardlarla dollar xarici sərmayə gətirilibdir. Əgər 1994-cü ildə, o çətin şəraitdə "Əsrin müqaviləsi" imzalanmasaydı, ondan sonrakı dövr ərzində bütün infrastruktur layihələri həyata keçirilməsəydi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlanmasaydı, bu gün Azərbaycanda iqtisadi inkişafdan, ümumiyyətlə, söhbət gedə bilməzdi. Azərbaycanın bir çox sahəsi məhz "Əsrin müqaviləsi"ndən sonra inkişaf etməyə başladı. Bu müqavilə bir növ bütün iqtisadi inkişaf üçün möhkəm təkan verdi. Azərbaycanın qarşısında duran sosial məsələlər daha da uğurla həll olunmağa başladı". Heydər Əliyevin adı tarixə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi daxil oldu, müstəqil Azərbaycan dövləti isə Heydər Əliyevin şah əsəri olaraq qəbul edildi.

Yaxşı xatırlayıram, Ankarada böyük Atatürkün Anıtqəbirdəki mavzoleyini ziyarət edirdik. Bizdən irəlidə xeyli məktəbli ziyarətə gəlmişdi. Bizə bələdçilik edən kompleksin yaşlı işçilərindən biri danışırdı ki, 1953-cü ildən fəaliyyət göstərən bu muzeyi hər il milyonlarla adam ziyarət edir. Biz statistikasını aparırıq, məlum olub ki, ümumi ziyarətçilərin sayı ilə yanaşı, gənclərin, məktəblilərin sayı ildən-ilə artır. Səbəbini soruşanda belə izah etdi ki, dahilərin xoşbəxtliyi və digər adamlardan bir fərqi də odur ki, onlar zaman etibarilə uzaqlaşdıqca, daha çox sevilirlər, insanlar onları daha dərindən dərk edir, onların xidmətləri, gördükləri işlər daha aydın görünür. İndi o xatirəni yadıma salanda düşünürəm ki, bizim gənclərin də Heydər Əliyevə sevgisi, rəğbəti onu daha dərindən, daha böyük məsafədən, tarixin müqayisəli prizmasından görməsi ilə bağlıdır. Bizim yaşıdlarımız o çətin günləri, hərc-mərcliyin, anarxiyanın hökm sürdüyü dövrləri, vətəndaş müharibəsinin xofunu, çörək növbələrinin faciəsini, tariximizin bəlkə də ən çətin mərhələsini addım-addım yaşamışıq deyə, bizim üçün o hadisələr adiləşib. Ancaq yeni nəsillər tarixin ayrı-ayrı dövrlərini müqayisə edib, son otuz ildə haradan haraya gəldiyimizi, necə bir inkişaf yolu keçdiyimizi, Asiyanın geri qalmış nizamsız ölkəsindən Avropanın mədəniyyət paytaxtlarından birinə çevrilmiş Azərbaycanın qazandığı uğurların miqyasını daha aydın görə bilirlər. Bunun necə əldə edildiyini, hansı çətinliklərdən keçildiyini, buruğanların, tufanların hansı diplomatik üsullarla, siyasi manevrlərlə yatırıldığını oxuyaraq, öyrənərək bizdən də yaxşı bilirlər, bu inanılmaz qəhrəmanlıqların müəllifini yaxşı tanıyırlar.

Heydər Əliyev canlı məktəb, canlı klassika, tarixin canlı örnəyi idi. Dəmir məntiqi, parlaq zəkası, iti mühakimə qabiliyyəti, fitri istedad sayılacaq fenomenal yaddaşı, möhkəm xarakteri, ən çıxılmaz vəziyyətlərdən, mürəkkəb situasiyalardan çıxmaq bacarığı onu hamıdan fərqləndirirdi. O, anadangəlmə lider, misilsiz təşkilatçı, mükəmməl və universal şəxsiyyət idi. İctimai həyatın elə aparıcı sahəsi yox idi ki, Heydər Əliyev ona dair ən zəruri biliklərə malik olmasın. Böyük iqtisadçı kimi ölkənin sosial-iqtisadi həyatının bütün sahələri məhz onun kursu əsasında inkişaf edirdi... Hüquq nəzəriyyəçisi kimi dövlət quruculuğunun əsas yükü onun çiyinlərində idi... Usta diplomat kimi ölkəmizin dünya birliyində layiqli yer tutması onun müstəsna xidmətləri idi... Böyük sərkərdə kimi Azərbaycanın bu gün bizi doğma torpaqlarımıza qovuşduran Milli Ordusunu o qurmuşdu... Milli mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin, dilimizin, dinimizin ən böyük bilicisi kimi bu dəyərlərin ən böyük hamisi o idi...

Bəzən təəccüblənməmək olmur: o, bütün bunları, kiçik bir insan ömrünə necə sığışdıra bilirdi? Amma bu suala cavab var. Bu cavab ulu öndərin "Xalqın, vətənin taleyi hər bir insanın öz taleyinə çevrilməlidir" kəlamında gizlənir. Heydər Əliyev heç vaxt öz şəxsi həyatını yaşamadı. Azərbaycanın taleyini öz taleyinə çevirdi, həyatını bu xalqın, bu ölkənin yolunda şam kimi əritdi.

Heydər Əliyev Vətəni, milləti, dövləti sevməyin, ona təmənnasız xidmət etməyin canlı nümunəsi idi. Və elə bunlara görə də hər bir azərbaycanlının qəlbini, düşüncəsini fəth edə bildi. Onun milli qürur, fəxr-fəxarət ünvanına çevrildi. O, Azərbaycanın simvolu idi. Azərbaycanı əksər hallarda ona görə tanıyırdılar. "Heydər Əliyev" və "Azərbaycan" - bu iki məfhum bir çox hallarda sinonim kimi işlədilirdi. Mən dəfələrlə xarici ölkələrdə bu fikrin səslənməsinin şahidi olmuşam. Açıq demək lazımdır ki, dünyanın böyük dövlətlərində bəzən kiçik ölkələrə Mayakovskinin "Pasport" şeirində olduğu kimi, bir növ, yuxarıdan aşağı, "əcəba, coğrafi yenilik?!" fəlsəfəsi ilə yanaşırlar. Ancaq bizim respublikamız təqdim olunanda ən tanınmış siyasi xadimlərin dilindən "oooo, Azərbaycan! Heydər Əliyev! Heydər Əliyev! Böyük şəxsiyyət!" sözlərini dəfələrlə eşitmişəm.

Ulu öndərin fəaliyyətinə sovet dövrü və müstəqillik illəri kimi iki fərqli tarixi şərait nöqteyi-nəzərindən yanaşanda çox mühüm bir tarixi gerçəyi qətiyyən unutmaq və ya gözardı etmək olmaz. O da budur: Heydər Əliyev "Azərbaycan" və "azərbaycanlı" məfhumlarının sosial-siyasi statusunu dəyişdirdi. Bu məfhumların bəlli siyasi şərtlər üzündən çox vaxt alt qatlarda gizli qalan, təhrif edilən gerçək mahiyyətini üst qata çıxara, onları olduğu kimi təqdim, təmsil və tərənnüm edə bildi. Məsələn, bir faktı yaxşı xatırlayıram. SSRİ dönəmində Azərbaycana ittifaq miqyasında ögey münasibət vardı. Bu ayrı-seçiklik ustalıqla gizlədilsə də, hər halda sezilirdi. O da bu idi ki, SSRİ-nin ali dövlət mükafatlarına Azərbaycandan bir qayda olaraq sadə peşə adamlarını - pambıqçıları, baramaçıları, sağıcıları, çobanları, fəhlələri layiq görür, onları deputat seçirdilər. Bunun alt mənası da vardı. Mərkəzi hakimiyyət bununla göstərmək istəyirdi ki, azərbaycanlılar elə sadəcə təsərrüfat işlərində uğur qazanmaq gücünə malikdirlər, bundan artığına qadir deyillər. Heydər Əliyev isə Sov. İKP MK-nın Siyasi Bürosundakı mövqeyindən və şəxsi nüfuzundan istifadə edərək Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Mirzə İbrahimov, Rəsul Rza, Süleyman Rüstəm, Süleyman Rəhimov, Mustafa Topçubaşov və başqalarına o dövrün ən yüksək titulu olan Sosialist Əməyi Qəhrəmanı fəxri adının, Zeynəb Xanlarova, Lütfiyar İmanov, Rauf Hacıyev, Arif Məlikov, Mehdi Məmmədov, İsmayıl Dağıstanlı, Fidan Qasımova və başqalarına SSRİ Xalq artisti kimi yüksək adın verilməsinə nail olaraq Azərbaycan elminin, səhiyyəsinin, mədəniyyətinin, ədəbiyyatının SSRİ səviyyəsində qəbul olunmasına və təsdiqinə nail oldu. O, kommunist rejimi dövründə doğma xalqına qarşı baş vermiş haqsızlıqlar əleyhinə özündən başqa heç kəsin apara bilməyəcəyi mübarizəni apardı, Kreml rejiminin ağır təqibləri şəraitində xalqının çəkdiyi əzablara cavab olaraq, Azərbaycanın gələcəyi naminə olduqca uzaqgörən və çox cəsarətli addımlar atdı.

Vətənin bütün guşələrində Azərbaycanın haqqı tapdalanmış böyük şəxsiyyətlərin - Nəriman Nərimanovların, Cəfər Cabbarlıların heykəllərini ucaltdırdı, repressiya qurbanı olmuş böyük Hüseyn Cavidi ölümündən illər keçdikdən sonra Vətənə qaytardı, Kerçdə, Krımda həlak olmuş minlərlə azərbaycanlının şərəfinə Sapun Qora yaxınlığında əzəmətli abidə ucaltdırdı...

Heydər Əliyev görkəmli elm və ədəbiyyat xadimləri akademik Ziya Bünyadov, professor Abbas Zamanov, şair Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk kimi böyük vətəndaşlıq mövqeyinə və milli ideallara malik olan Azərbaycan ziyalılarını baş verə biləcək hər bir təhlükədən nəinki müdafiə etmiş, həm də onların elmi və bədii yaradıcılığının daha intensiv inkişaf etdirilməsinə hər cür şərait yaratmış, onlara fəxri adlar, Dövlət mükafatları verdirmişdi.

Bu gün dünyanın 5 min xalqının arasında sayı cəmi 200 olan o xoşbəxt xalqlardanıq ki, bizim müstəqil dövlətimiz var.

Həqiqətən, düşünəndə ki, dünyada hər 25 xalqdan yalnız birinin dövləti var, adam qürurlanır. Bu dövlətin hansı çətinliklərin, keşməkeşlərin hesabına başa gəldiyini düşünəndə isə onun hər qarışını sevmək, onu göz bəbəyi kimi qorumaq arzusu daha da artır.

Mən artıq yaşa dolmuş bir insanam. Azərbaycanın yaxın-uzaq tarixinə bələd olan təcrübəli bir insan kimi hər zaman tam məsuliyyətimlə deyirəm ki, Azərbaycanı ötən əsrin 90-cı illərinin burulğanlarından çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyev idi. O məqamlarda Heydər Əliyevdən başqa heç kim bu taleyüklü işin öhdəsindən belə məharətlə gələ bilməzdi.

Ulu öndər Azərbaycanı demək olar ki, təməldən başlayaraq yenidən qurdu. Ölkəni ayağa qaldırdı və ömrünün sonlarına doğru hakimiyyət sükanını layiqli davamçısına verdi.

Heydər Əliyev Azərbaycan üçün çox işlər görüb. Onun bu xalqa, bu dövlətə ən böyük xidmətlərindən biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin timsalında ölkənin taleyini Azərbaycanın müstəqilliyini qoruyan, onu tarixinin ən qüdrətli mərhələsinə yetirən güclü liderə əmanət etməsidir.

Mən ulu öndərin dahiliyini, hərtərəfli şəxsiyyət, yüksək intellektli, parlaq zəkalı, unikal yaddaşlı, həm də çox həssas, humanist, vətənpərvər bir insan olduğunu əyani görmüş xoşbəxt adamlardanam. Ona görə də bu qeyri-adi şəxsiyyətlə bağlı bəzi xatirələrimi bölüşmək istəyirəm ki, bizdən sonra gələn nəsillər Heydər Əliyevi yalnız böyük siyasətçi, çətin vəziyyətlərin qrossmeysteri, xalqın xilaskarı kimi yox, həm də mənəvi cəhətdən zəngin, milli dəyərlərin daşıyıcısı olan böyük vətəndaş olduğuna bir daha əmin olsunlar.

1997-ci ilin yazı idi. O zaman Bakı Dövlət Universitetinin rektoru idim və universitet qəzetinin redaktoruna göstəriş vermişdim ki, bir il əvvəl dünyasını dəyişmiş Sabir Xəlilovun anım günü münasibətilə məqalə hazırlasın. Sabir Xəlilov aspirantura şöbəsinin rəhbəri idi. Vaxtilə Heydər Əliyevi dəstəkləyən məşhur "91-lər"dən olmuşdu. Məqalə qəzetdə dərc olunan gün Heydər Əliyev mənə zəng vurdu, ciddi tonda soruşdu:

- Sabir Xəlilovun vəfatını niyə mənə xəbər eləməmisən? Bu cür insanları sağlığında qiymətləndirmək, həyatdan köçəndə isə böyük ehtiramla yola salmaq lazımdır.

Bildirdim ki, o, rəhmətə gedəndə mən rektor deyildim. Bu zaman Prezident dedi:

- Bu xəbəri bu gün universitet qəzetindən oxumuşam. Gec də olsa, Sabir müəllimin ailəsinə mənim başsağlığımı çatdır. Onun qəbri üstünə gedin və ailəsinə lazım olan köməyi göstərin.

Bu söhbətdən həm təəccübləndim, məəttəl qaldım ki, bu qədər işin arasında o boyda böyük bir şəxsiyyət vaxt tapıb bütün qəzetləri, o cümlədən bir universitet qəzetini də oxuyur, həm də çox təsirləndim ki, sıravi bir müəllimə bu qədər diqqət göstərə bilir. Elə həmin gün Prezidentin sözlərini mərhumun ailəsinə, eləcə də universitetin Elmi Şura üzvlərinə çatdırdım. Yalnız Prezidentin tapşırığını yerinə yetirdikdən sonra bir qədər rahatlıq tapdım.

1996-cı ildə universitetin qocaman müəllimi, professor Tofiq Bəktaşi dünyasını dəyişdi. Tofiq müəllim bir müddət Naxçıvanda işləmişdi. Sonra uzun müddət Bakı Dövlət Universitetinin Nəzəri-mexanika kafedrasında çalışmışdı. 1965-ci ildə mən tələbə olanda bizə nəzəri mexanika fənnini tədris etmişdi. Heydər Əliyev Tofiq Bəktaşinin vəfatı barədə eşidən kimi o zaman BDU-nun rektoru Murtuz Ələsgərova zəng vurmuş və mərhumun dəfnini xüsusi ehtiramla təşkil etməyi tapşırmışdı:

- Tofiq Bəktaşi vaxtilə Naxçıvanda müəllimim olub. Onu son mənzilə ehtiramla yola salmaq lazımdır.

Ulu öndərin müəllimlərə həssas münasibətinin bir örnəyi də Naxçıvan Muxtar Respublikasının yubileyi münasibətilə bir saatlıq çıxışının əsas hissəsinin məhz təhsilə, məktəbə və müəllimlərə həsr olunması idi. Heydər Əliyev vaxtilə ona dərs demiş bütün müəllimlərin adlarını çıxışında böyük ehtiramla yada saldı. Onun unikal yaddaşına, müəllimlərinə olan sevgisinə elə heyran qalmışdım ki, mən də öz müəllimlərimin adlarını xatırlamağa başladım və bu adları heç vaxt unutmadım.

1999-cu ildə Heydər Əliyev Xətai rayonu ərazisində onun tapşırığı ilə yaradılmış SOS Uşaq Kəndinin açılışında iştirak edirdi. Azərbaycanda belə bir mərkəzin yaradılması yeni hadisə idi. Prezident xarici qonaqlarla mərkəzin otaqlarından birinə daxil oldu. Həmişəki kimi balacalarla söhbət etməyə başladı. Axırda uşaqlardan soruşdu ki, Azərbaycanın himnini oxuya bilərsinizmi? Onlar səs-səsə verərək himni çox gözəl oxudular. Prezidentin hətta gözləri doldu və bizə - kənarda dayanıb bu mənzərəni seyr edən bir neçə nazirə müraciət etdi:

- Baxın, siz himni belə oxuya bilərdiniz? Bu uşaqlar Azərbaycanın xoşbəxt gələcəyidirlər.

1998-ci il sentyabrın 25-də müstəqil Azərbaycan müəllimlərinin birinci qurultayı keçirilirdi. Heydər Əliyev onun üçün ayrılmış xüsusi lojada yox, gəlib ağsaqqal müəllimlər, ölkəmizin hörmətli ziyalılarının arasında əyləşdi. Fasilədə foyedə qurulmuş sərgiyə tərəf getdik. Burada izdiham toplaşmışdı. Mühafizəçilər sədd yaratmışdılar ki, nümayəndələr Prezidentin eksponatlara baxmasına mane olmasın. Heydər Əliyev bunu görüb şəxsi mühafizə dəstəsinin rəisini yanına çağırıb etiraz etdi:

- Sən niyə müəllimlərlə mənim aramda sədd yaradırsan? Adamlarını oradan yığışdır. Məni müəllimlərdən qorumaq lazım deyil.

Pedaqoqlar bir anda Heydər Əliyevi əhatəyə aldılar. Onlarla səmimi ünsiyyət həm müəllimlər üçün, həm də Heydər Əliyevə çox xoş oldu.

Həmin qurultayda müəllimlərin arzusu ilə ona "Azərbaycanın xalq müəllimi" fəxri adının verilməsini planlaşdırmışdıq. Ancaq bilirdik ki, ona bir neçə fəxri ad, o cümlədən Fəxri akademik, Fəxri doktor və digər bu kimi adlardan verilməsini təklif edəndə etiraz etmişdi. Bütün belə titullardan imtina edən ulu öndər "Azərbaycanın xalq müəllimi" fəxri adına etiraz etmədi. Fikrimcə, bu, ümummilli liderin şərəfli müəllim adına, ümumən təhsil işçilərinə olan böyük hörmət və ehtiramının təcəssümü və onun böyük məktəb olmasının ifadəsi idi.

Bəli, ümummilli lider Heydər Əliyev Azərbaycan tarixinin ən böyük müəllimlərindən biri olmuşdur. Tarixi yarada-yarada onu öyrədən, onun mürəkkəbliyini və bu çətinlikləri necə şərəflə dəf etməyi tədris edən, dəyanətdən, ləyaqətdən, idarəçilikdən, iqtisadiyyatdan, cəsarətdən, mədəniyyətdən, həssaslıqdan və daha neçə-neçə müxtəlif fənlərdən dərs deyən, özü də sadə dərs yox - yüksək səviyyəli master klass dərs deyən müəllimə bənzəyirdi. Bu 10 milyonluq (bəlkə də daha çox) auditoriyada onun dərslərinin azad dinləyicilər, qiyabiçi tələbələr, fikri ayrı işlərdə qalıb pis oxuyanlar da var idi, onun hər kəlməsinə, hər hərəkətinə, jestinə diqqət kəsilib mənimsəməyə çalışan əlaçılar da. Ancaq heç şübhəsiz bu auditoriyanın ən diqqətli, ən çox öyrənməyə çalışan, ən əlaçı tələbəsi İlham Əliyev idi.

Prezident İlham Əliyev öz xatirələrində qeyd edir ki, "atam çox zəhmli, tələbkar, ciddi bir adam idi. Belə olması ilə yanaşı, uşaq yaşlarımdan onun evdə ailə üzvləri ilə qayğıkeş münasibətləri, anama və bizə həssaslığı mənim diqqətimi çəkirdi. O, bizə ailədə sağlam mühitin zəruriliyi haqda nəsihətlər vermirdi, bunu əyani göstərib öyrədirdi. Mən həyatda ən çox ondan, onun şəxsi nümunədə göstərdiklərindən öyrənmişəm".

Sonralar Ulu Öndərin dəstəyi ilə böyük siyasət meydanı ilə tanışlığı onda ən mürəkkəb məqamlarda düzgün qərarlar vermək, ləyaqət və şərəfi hər şeydən uca tutmaq, fədakarlıq, milli maraqları müqəddəs hesab etmək, böyük amallara sədaqət kimi nəcib keyfiyyətləri daha da inkişaf etdirdi. Hələ sağlığında əfsanələşən, sarsılmaz iradəyə malik olan, bütün mənalarda zamanı qabaqlayan, xalqımızın yaddaşına Ulu Öndər kimi həkk olunan Heydər Əliyev fenomeni Azərbaycanın son 50 ildən çoxunun, xüsusilə müstəqillik dönəminin tarixini yazarkən onunla çiyin-çiyinə addımlayan möhtərəm Prezidentimiz hərf-hərf nəqş edilən bu yazıların incəliklərini mənimsəmişdir. Dahi rəhbər xalqımızın ən çətin anında - sovet imperiyasının dağıldığı, ölkənin parçalandığı, xalqın ruhdan düşdüyü bir dövrdə siyasi meydana xalqın xilaskarı kimi daxil olarkən, torpaqların itirildiyi, qaçqın və köçkünlərin artdığı bir zamanda Azərbaycan xalqına ruh verərkən, XX əsrin 60-cı illərindən ömrünün sonuna qədər məqsədyönlü və ardıcıl fəaliyyət göstərərək insanlarda azadlıq, müstəqillik ideyaları formalaşdırarkən, təhlükə qarşısında qalan müstəqilliyimizi qorumaq və möhkəmləndirmək üçün özünü qadir sərkərdəyə, xalqı isə cəsur əsgərə çevirərkən cənab İlham Əliyev onun həyat məktəbini ən yaxşı tələbəsi kimi öyrənirdi. Sonralar bu öyrəndikləri ona Azərbaycanı regionun aparıcı dövlətinə çevirməkdə, xalqın maddi rifah halının yüksəlməsində, 44 günlük müharibədə şanlı qələbənin əldə edilməsində çox yardımçı olacaqdı.

Heydər Əliyev Azərbaycana ölkənin dağılma təhlükəsi qarşısında olduğu zaman gəldi və Azərbaycanı nəinki xilas etdi, onu həm də yalnız regionun yox, bütün türk dünyasının qabaqcıl məmləkətlərindən birinə çevirdi. Ulu öndərin "Türkiyə Cümhuriyyəti Atatürkün yalnız fəaliyyəti nəticəsində deyil, həm də qəhrəmanlığı nəticəsində yaranmışdır" sözləri eyni zamanda Heydər Əliyevin tarixi xidmətlərini də ifadə edir.

Ümummilli lider Heydər Əliyev yalnız mənsub olduğu Azərbaycan xalqının deyil, bütün dünya xalqlarının təsəvvüründə özünün mükəmməl obrazını, aydın cizgiləri ilə seçilən möhtəşəm portretini yaratmış, hər dövrü, hər mərhələsi həqiqi məktəb olan qeyri-adi bir ömür yaşamışdır. Bu məktəbin ən qüdrətli məzunu olan cənab İlham Əliyev ötən illərdə xalqımızın inkişaf və tərəqqisində əvəzsiz xidmətlər göstərmiş, onun firavan gələcəyi üçün uğurlu təməl hazırlamış ulu öndər Heydər Əliyevin irəli sürdüyü ideyaları daha da inkişaf etdirmişdir. Bu gün müstəqil Azərbaycan qarşısında duran ümummilli məqsədləri dəqiq müəyyən edərək, onların gerçəkləşdirilməsi istiqamətində ardıcıl, sistemli fəaliyyət göstərən ölkə kimi dünyanın yeni iqtisadi fenomeninə çevrilmişdir. Çünki Prezident İlham Əliyev ulu öndərin məktəbinin yetirməsi, qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir. Prezident İlham Əliyev həm də praqmatik siyasətçidir, hadisələri, prosesləri dəqiq qiymətləndirir, mühüm məsələlərin elmi cəhətdən əsaslandırılmış həlli yollarını təqdim edir, verdiyi bütün vədləri gerçəkləşdirir: "Biz 30 ilə yaxın idi ki, həmişə deyirdik ki, gün gələcək doğma ata-baba torpaqlarımıza qayıdacağıq." Ancaq indi Prezidentimizin uzaqgörən, qətiyyətli siyasəti nəticəsində biz bu gün həmin torpaqları erməni üzdəniraqlarından, faşistlərindən geri almışıq. Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Müzəffər Ali Baş Komandan İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən ulu öndərin arzusunu reallaşdırdı. Bununla da Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi. Həmçinin, bütün dünya Azərbaycan dövlətinin ədalətli mübarizəsinin bir daha şahidi oldu.

Bu qələbə də indiyədək iqtisadiyyat, siyasət, mədəniyyət, elm, təhsil, idman, səhiyyə və digər sahələrdə qazanılmış uğurların əsası olan Heydər Əliyev məktəbinin daha bir qələbəsi kimi tarixə yazıldı.

Misir MƏRDANOV,
AMEA-nın müxbir üzvü, professor.

Məhz Heydər Əliyevin sayəsində müstəqillik ideyaları həqiqi gerçəkliyə çevrilib. Ümummilli lider müstəqillik, Azərbaycançılıq ideologiyasını milli şüurda və psixologiyada, xalqın iradəsində bərqərar etməyə nail oldu, insanlarda Vətən, dövlət, dövlətçilik, suverenlik hissiyyatları gücləndi, vətənpərvərlik ümummilli ideologiya səviyyəsinə qaldırıldı. Azərbaycanda demokratikləşmə milli inkişafın vacib faktoru kimi dövlət siyasətinin əsas istiqamətinə çevrildi.